

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 248 (24.135)

*29 dekabr 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Apellyasiya məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri sədrlərinin, sədrləri müavinlərinin və hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya məhkəmələri üzrə:**

1.1. İlham Məmməd oğlu Cəfərov Bakı Apellyasiya Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Teyyub Asif oğlu Muxtarov Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. Zaur Mirzağa oğlu Allahyarov Şirvan Apellyasiya Məhkəməsinin sədrinin müavini təyin edilsin;

1.4. Məmməd Allahverdi oğlu Məmmədov Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri vəzifəsindən azad edilsin;

1.5. Rafael Əmir oğlu Eyvazov Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.6. Rafiq Musa oğlu Cəfərov Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.7. Zaur İkram oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.8. İlham Qoşunəli oğlu Əsədov Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.9. Elçin İsgəndər oğlu Xasməmmədov Şirvan Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.10. İsmayıl Kamil oğlu Xəlilov Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.11. Elxan Xasay oğlu Süleymanov Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin;

1.12. Şəlalə Akif qızı Həsənova Bakı İnzibati Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədrinin müavini təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

1.13. Əli Ziya oğlu Süleymanov Füzuli Hərbi Məhkəməsinin sədri təyin edilsin;

1.14. Vüqar Kamal oğlu Məmmədov Gəncə Hərbi Məhkəməsinin sədri təyin edilsin;

1.15. İlqar Məsail oğlu Quliyev Tərtər Hərbi Məhkəməsinin sədri təyin edilsin;

1.16. Zeynal Qurban oğlu Ağayev Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.17. Şeyda Ədalət qızı Məhərrəmova Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.18. Azər İslah oğlu Paşayev Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.19. Həbib Bəhram oğlu Həsənov Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.20. İlqar Zahid oğlu Qaralov Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.21. İlham Əziz oğlu Kərimli Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.22. Faiq Adil oğlu Qasımov Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.23. Vidadi Kamal oğlu Qasımov Şəki İnzibati Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.24. Rasim Sarı oğlu Kazımov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.25. Elçin Məmməd oğlu Kazımov Abşeron Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.26. Sulduz Paşa oğlu Ləzimov Ağcabədi Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.27. Elşad Abdulla oğlu Bayramov Ağdam Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.28. Hümbət Qamuna oğlu Səlimov Balakən Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.29. Ramiz Vəliş oğlu Nurullayev Beyləqan Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.30. Gündüz Qasım oğlu Abbasov Bərdə Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.31. Vüsal Adil oğlu Cəbrayılov Cəlilabad Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.32. Aqil Əlisa oğlu Musayev Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Füzuli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.33. Toğrul Məhəmməd oğlu Məmmədov Lənkəran Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Goranboy Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.34. Elçin Firudin oğlu Qurbanov Şirvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Göyçay Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.35. Zaur Nazim oğlu Hüseynov Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Hacıqabul Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.36. Xıdır İnqilab oğlu Quliyev Xaçmaz Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.37. İlqar Hidayət oğlu Cabbarov Şirvan Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Xızı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.38. Həsən Salman oğlu Qəniyev Kəlbəcər Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.39. Samir Əlibala oğlu Məmmədov Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Quba Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.40. Anar Adil oğlu Qasımov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qusar Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.41. Cavad Cavanşir oğlu İbrahimov Laçın Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.42. Kamran Şakir oğlu Süleymanov Oğuz Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Lənkəran Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.43. Firdovsi Zülfü oğlu Əliyev Masallı Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.44. Nemət Şirkət oğlu Paşayev Şəmkir Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Mingəçevir Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.45. Ayaz Aydın oğlu Səlimov Masallı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naftalan Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.46. Ceyhun Tofiq oğlu Qədimov Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Neftçala Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.47. Səadət Nazim qızı Zeynalova Samux Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Oğuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.48. Adil Yaqub oğlu Vəliyev Qusar Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Salyan Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.49. Gündüz Əhməd oğlu Şirinov Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Samux Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.50. Bəylər Ramiz oğlu Ələkbərov Siyəzən Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.51. Fərid Murtuza oğlu Yaqubov Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şamaxı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.52. Ceyhun Rasim oğlu Əhmədov Şəki Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.53. Etibar Zülfüqar oğlu Hümbətov Şamaxı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şirvan Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.54. Sərdar Bəşərəddin oğlu Mehrəliyev Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şuşa Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.55. Tahir Möhsüm oğlu Qubadov Zərdab Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Tərtər Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.56. Qafil Yavər oğlu Baxşıyev Tovuz Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.57. Hilal İsmayıl oğlu Xəlilov Ucar Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.58. Toğrul Məhəmməd oğlu Əliyev Yevlax Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.59. Vüqar Nemət oğlu Məmmədov Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Zaqatala Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.60. İlqam Elxan oğlu Həsənquliyev Yardımlı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Zərdab Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.61. İlqar Aslan oğlu Məmmədov Quba Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Astara Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.62. Nüsrət Fətulla oğlu Mirzəyev Biləsuvar Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.63. Telman Osman oğlu Quliyev İmişli Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.64. Muradağa Əhmədağa oğlu Qasımov Salyan Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Lənkəran Rayon Məhkəməsinin hakimi təyin edilsin.

1.65. Zeynal Ağabala oğlu Zeynalov Masallı Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.66. Rəşad Nizami oğlu Qoşqarlı Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.67. Gülnarə Fikrət qızı Tağızadə Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və həmin Qanunun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq,

2.1. Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

2.2. İslam Əli oğlu Əliyev Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin.

3. Bu Sərəncamın 1.1-ci, 2.1-ci və 2.2-ci bəndləri 2023-cü il yanvarın 2-dən, digər bəndləri imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 dekabr 2022-ci il**

## DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir

### *Prezident İlham Əliyev Bakıda 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi, 31 ünvanında yerləşən dördmərtəbəli mərkəzin ümumi sahəsi 4405 kvadratmetrdir. Mərkəz modern və konstruktiv üslubda layihələndirilib, mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir.

Mərkəzdə 120 nəfərə yaxın işçi heyəti çalışacaq və "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü fəaliyyət göstərəcək. Burada gün ərzində 650-700 vətəndaşa xidmətin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.

*Ardı 2-ci səhifədə*




Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi bu gün məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində



12 istiqamət üzrə 153 xidmət göstərir. Bu günədək istifadəyə verilmiş DOST mərkəzlərində, ümumilikdə, 1 milyon 250 mindən çox şəxsə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,2 faiz təşkil edir.

Azərbaycan Prezidentinin idarəçilik fəlsəfəsi, ilk növbədə, sosial dövlət strategiyasına söykənir. Postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir.

Eyni zamanda Prezident İlham Əliyevin tapşırığına əsasən 2020-ci ilin dekabr ayından müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı müasir protezlərlə təmin olunmasına başlanıb. Ötən dövrdə artıq 379 şəxs yüksək texnologiyalı




394 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.

Haqqında məlumat verilən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində isə şəhid




ailələri üzvlərinin, müharibə əlillərinin və onların uşaqlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin sırasından istedadlı şəxslərin müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün imkanlar yaradılıb.

Beləliklə, istifadəyə verilən növbəti DOST Mərkəzi sosial xidmətlər sahəsində daha böyük ərazini və daha çox əhalini əhatə etməklə keyfiyyətli xidmətin coğrafiyasının genişlənməsinə şərait yaradacaq.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayon ağsaqqalları və ictimaiyyət nümayəndələri ilə görüşdü

Dekabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayonunda oldu, sakinlərlə görüşdü.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin salamlarını rayon ictimaiyyətinə çatdırdı. Dövlət başçısının rəhbərliyi ilə Kəngərli rayonunun inkişafı sahəsində görülən işlərdən danışan Fuad Nəcəfli bununla yanaşı, yerlərdə məmurlar tərəfindən vəzifələrdən sui-istifadə hallarının olduğunu, vətəndaşların hüquqlarının pozulduğunu, sahibkarlıq fəaliyyəti üçün maneələrin yaradıldığını qeyd etdi.

Sonra sakinlərin müraciətləri dinlənildi.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli görüşdə iştirak edən bütün sakinlərə təşəkkürünü bildirdi, problemlərin qısa müddətdə aid dövlət qurumları ilə birlikdə araşdırılıb həll olunacağını qeyd etdi.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Orduda olub, xidmət şəraiti ilə maraqlanıb





Dekabrın 28-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Orduda olub, xidmət şəraiti ilə maraqlanıb.

Əvvəlcə Naxçıvan Qarnizonu Qoşunlarının Mərkəzi Qərargahına gələn Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş Döyüşü İdarəetmə Mərkəzi və Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Döyüşü İdarəetmə Mərkəzi Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələri arasında qarşılıqlı əlaqənin təmin edilməsində, qarşıya qoyulan döyüş tapşırıqlarının operativ icrasında mühüm rol oynayır.

Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev muxtar respublikanın etibarlı müdafiəsinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan danışıb, bundan sonra da muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi və müdafiə potensialının daha da gücləndirilməsi istiqamətində lazımi addımların atılacağını diqqətə çatdırıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzi ilə də tanış olan Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə müxtəlif sinif otaqları, simulyasiya mərkəzi və trenajorlar zalı barədə ətraflı məlumat verilib.

Təlim-Tədris Mərkəzində Naxçıvanda ordu quruculuğundan bəhs edən videoçarxa baxış olub.

Sonra Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində olub, qərargah binaları, əsgəri-məişət kompleksləri, hərbi xəstəxana, həmçinin ordumuzun arsenalında olan silah-sursat və döyüş texnikaları barədə məlumat alıb.

**"Şərq qapısı"**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

### S Ə R Ə N C A M I

### S.Ə.Neymətovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilməsi haqqında

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Süleyman Əsgər oğlu Neymətov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2022-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

### S Ə R Ə N C A M I

### R.R.İsmayılovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Rafiq oğlu İsmayılov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2022-ci il*

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbirlər keçirilib

*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə əvvəlcə Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*





Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə reallaşan tədbiri giriş sözü ilə gənclər və idman naziri Ramil Hacı açıb. Diqqətə çatdırılıb ki, müasir Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün həmvətənlərimizi respublikanın ictimai-siyasi maraqları ilə bir olmağa, həmrəyliyə çağırış bayramıdır. Bu bayram ildən-ilə daha böyük vüsət alaraq ürəklərində Vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri başlayan hər bir soydaşımız tərəfindən rəğbətlə qeyd olunur. Bununla yanaşı, bizim gücümüz birliyimizdə, həmrəyliyimizdədir. Bunu 44 günlük Vətən müharibəsində də bütün dünya gördü və anladı ki, dövlət-xalq-ordu vəhdətindən yaranan "Dəmir yumruq" sarsılmazdır, əbədidir. Həmin qürurlu, taleyüklü və həssas dövrü unutmamalı, birlik və bərabərlikdən yaranan möhtəşəm əsər kimi gələcəyə daşımalıyıq.

Qeyd olunub ki, istedadlı gənclərin dövlətimiz tərəfindən qiymətləndirilməsi və onlara cəmiyyətin aparıcı sahələrində yüksək etimad göstərilməsi ənənəsi davam etdirilir. Bu il idman sahəsində də bir çox yeniliklər yaşandı. İxtisaslı kadr ehtiyatının zənginləşdirilməsi, gənc nəslin idmana təşviqi və bu sahədə kütləviliyin təmini ilə əlaqədar bir sıra işlər görüldü. Naxçıvan idmanının parlaq gələcəyi üçün yerli, eləcə də xarici əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf etdirildi. Görülən işlərin və əməyin qarşılığında idmançılarımız öz nailiyyətləri ilə etimadı yüksək səviyyədə doğruldurlar. Diqqətə çatdırılıb ki, idmançılarımız 2022-ci ilin ötən dövrü ərzində ölkə səviyyəli yarışlarda 216, beynəlxalq turnirlərdə 63, Avropa çempionatında 33, dünya çempionatında 2, dünya kubokunda 2 medal olmaqla, 316 medal qazanıblar. Medallardan 131-i qızıl, 77-si gümüş, 108-i isə bürüncdür.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev diqqətə çatdırıb ki, dövlətimiz tərəfindən gənclərə göstərilən diqqət və qayğı nəticəsində bu gün onlar muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edir, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilir, xidmətləri qiymətləndirilir. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun yaradılması, Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir. Ölkə başçısının rəhbərliyi ilə muxtar respublikada Naxçıvan gəncliyinin ictimai-siyasi həyatın bütün sferalarında aktiv fəaliyyət göstərməsi, öz potensialını, intellekt və istedadını ortaya qoyması üçün geniş imkanlar yaradılıb.

Tədbirdə bir-birindən maraqlı, yaddaqalan rəqs və müxtəlif musiqi nömrələri səsləndirilib. Sonra muxtar respublikamızın ictimai-siyasi həyatında fəallıq göstərənlər mükafatlandırılıb. Təhsil sahəsində, Vətən müharibəsində göstərdiyi şücaətə görə, könüllülük fəaliyyətində, idman və müxtəlif intellektual yarışlarda, habelə səhiyyə xidmətində, eləcə də elm-təhsil yolunda fərqlənən və media sahəsində səmərəli fəaliyyət göstərən bir sıra gənclər, muxtar respublikamızın ictimaiyyət nümayəndələri müxtəlif nominasiyalara layiq görülüblər, həmçinin Gənclər Fondu tərəfindən keçirilmiş "Qış kuboku" uğrunda intellektual oyunlar üzrə çoxnövçülüyün qalibi – "Diplomat" komandasının üzvləri təltif olunublar.

Tədbir konsert proqramı ilə davam edib.

✍ **Məcid RƏŞADƏTOĞLU**

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə giriş sözü ilə çıxış edən institutun rektoru Azad Novruzov qeyd edib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızın birliyinin yaradılması məqsədilə Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmişdir. Artıq 30 ildən çoxdur ki, dünya azərbaycanlıları bu günü ümummilli birliyin, həmrəyliyin rəmzi kimi yüksək səviyyədə qeyd edir. Rektor vurğulayıb ki, torpaqlarımızın işğaldan azad olunması milli həmrəyliyimizin təntənəsi, xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin təcəssümü oldu. Azad Novruzov çıxışının sonunda bütün Azərbaycan xalqını və tədbir iştirakçılarını bayramlar münasibətilə təbrik edib, onlara yeni uğurlar arzulayıb.

Tədbirdə Humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacızadə "Müstəqil Azərbaycanın inkişafında həmrəyliyin rolu" mövzusunda çıxış edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasının əsas strateji ideyalarından biri də məhz azərbaycanlıların həmrəyliyi və birliyi ilə bağlı olub. Dünyanın müxtəlif regionlarında yaşayan azərbaycanlıların milli icma çərçivəsindən çıxaraq mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, yaşadığı ölkələrdə siyasi, iqtisadi fəaliyyətlərini genişləndirməsi, milli maraqlara xidmət etməsi bu siyasətin prioritet istiqaməti olub və dünya azərbaycanlılarının vahid ideya, məqsəd və prinsiplər ətrafında sıx birliyinin təmin olunması üçün məqsədyönlü tədbirlər bu gün də uğurla davam etdirilir.

Sonra Təbiət və incəsənət fakültəsinin Riyaziyyat-informatika müəllimliyi ixtisası üzrə 5-ci kurs tələbəsi Coşqun Məmmədov bütün tələbələr adından institutun professor-müəllim heyətini, tələbələri və dünya azərbaycanlılarını bayramlar münasibətilə təbrik edib.

Tədbirin bədii hissəsində "Həmrəylik gənclərin dili ilə" layihəsinin videoçarxı təqdim olunub, layihədə Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan tələbələr iştirak ediblər. Gənclər bir-birini və dünya azərbaycanlılarını təbrik edərək həmrəylik nümayiş etdiriblər. Daha sonra institutun tələbələrinin hazırladıqları şeir, mahnı və bədii kompozisiyalar təqdim olunub.

Sonda tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Təhsil xərci müsabiqəsinin qalibləri ilə görüş

*Dünən sosial baxımından həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan istedadlı gənclərin təhsil haqqı xərclərinin ödənilməsi üzrə Azərbaycan Respublikası Gənclər Fondunun elan etdiyi müsabiqənin qalibləri ilə görüş keçirilib.*



Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda keçirilən görüşdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov və müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinin müsabiqə qalibi olan tələbələr iştirak edib.

Tədbirdəki çıxışlarda qeyd olunub ki, muxtar respublika gənclərinə dövlət qayğısı onların hərtərəfli inkişafına xidmət edir və gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakında, sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşmasında mühüm əhəmiyyətə malikdir. Təhsilin gənclər üçün əlçatanlığının təmin edilməsi və insan kapitalının inkişafına dəstəyin göstərilməsi məqsədilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil xərclərinin ödənilməsi üzrə həyata keçirilən tədbirlər gələcəyin savadlı kadrlarının yetişməsinə geniş imkanlar açır.

Tədbirdə təhsil xərcindən azad olunmuş Naxçıvan Dövlət Universitetinin Müalicə işi ixtisasının tələbəsi Aysel İsayeva qalib gənclər adından onlar üçün yaradılan əlverişli şəraitə görə dövlətimizə minnətdarlıq edib. Sonra qaliblərlə müqavilələr imzalanıb.

Qeyd edək ki, müsabiqədə naxçıvanlı gənclərin fəal iştirakının təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən Gənclər Mərkəzində tələbələrin qeydiyyatına köməklik göstərilməsi üçün komissiya yaradılıb və komissiya heyəti 98 gəncin sənədlərinin qaydalara uyğun hazırlanmasında, elektron qeydiyyat prosesindən keçmələrində köməklik göstərib. Cari ilin 3 oktyabr-13 noyabr tarixlərdə elan edilən müsabiqənin nəticələrinə əsasən 431 tələbənin təhsil xərcinin Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən ödənilməsinə qərar verilib ki, onlardan 55-i muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələr olub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## *"Açıq mikrofon"* layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetinin rektoru tələbələrlə görüşüb




Ali təhsil müəssisəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, komitənin sədri Hüseyn İmanovun moderatorluğu ilə keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev ali təhsil ocağında fəaliyyət göstərən tələbə təşkilatlarının işini yüksək qiymətləndirib. Qeyd edilib ki, tələbələrin universitetin elmi və tədris göstəricilərinin irəliləməsində xüsusi rolu var. Tələbə təşkilatları tərəfindən onların fərdi inkişafının təmin edilməsi, vətəndaş mövqeyinin gücləndirilməsi, tələbələrin ictimai layihə və tədbirlərdə fəallığının artırılması, tələbələrdə elmi tədqiqata maraq oyadılması, onlar arasında maarifləndirmə işinin aparılması istiqamətində tədbirlər görülür. Bildirilib ki, tələbə təşkilatlarının fəaliyyəti nəticəsində tələbələr respublikada keçirilən idman yarışları, intellektual oyunlar, olimpiadalar, seminarlar, müxtəlif istiqamətli müsabiqələr, beynəlxalq əhəmiyyətli yarışlarda universiteti layiqincə təmsil edir və nailiyyət qazanırlar. Rektor tələbə təşkilatlarının işini dəyərləndirərək onların təşəbbüsü ilə keçirilən layihələrin və tədbirlərin davamlı hal aldığını diqqətə çatdırıb. Bildirilib ki, tələbələrə elektron təhsildə də geniş imkanlar yaradılaraq LMS sistemi vasitəsilə mühazirə mətnlərinin, imtahan suallarının əvvəldən sistemə yerləşdirilməsi onların təhsildə keyfiyyət göstəricilərinin artırılmasına xidmət edir. Beləliklə, tələbələr dərs prosesində vaxtı dəyərləndirərək müəllimlə daha intensiv işləyirlər.



Rektor keçirilən görüşün tələbələr üçün əhəmiyyətindən bəhs edərək bu kimi tədbirlərin daimi xarakter almasının zəruriliyini vurğulayıb. Tələbələrlə dərslərdə, auditoriyalarda, müxtəlif tədbirlərdə mütəmadi olaraq görüşlərin keçirildiyini deyən Elbrus İsayev universitetin rəsmi internet saytında *(ndu.edu.az)* "Rektora müraciət" bölməsi üzərindən də şikayət və təkliflərin qəbul edildiyini diqqətə çatdırıb.

Sonra hər fakültə üzrə tələbələr imtahan, seminar və mühazirələrin keçirilməsi, kredit sistemi, dərs vəsaitləri və onları maraqlandıran mövzularda təklif və şikayətlərini rektora ünvanlayıb və suallar ətraflı şəkildə cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

Hüseyn Cavid – 140

# Hüseyn Cavidin fəlsəfi dünyası – “Azər” poeması

*Naxçıvan torpağında dünyaya göz açan romantik şeirimizin ən görkəmli nümayəndəsi, dramaturq, filosof Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan sənətkarlardandır. Həm klassik, həm də xalq şeiri üslubunda mükəmməl lirik-fəlsəfi nümunələr yaradan ustad sənətkarın özünəməxsus deyim tərzi, dili və üslubu onu bütün dövrlərdə şeirimizin zirvəsinə daşımışdır. 1882-ci ildə Naxçıvan torpağında doğulan Hüseyn Cavid təhsilini öz dövründə Azərbaycanın pedaqoji mərkəzləri sayılan Naxçıvan və Təbrizdə, daha sonra isə İstanbulda davam etdirmişdir. 1909-cu ildən “Cavid” təxəllüsü ilə ədəbi aləmdə tanınmışdır. Hüseyn Cavidin aldığı təhsil onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamış, böyük ədibin qələmindən nəinki Azərbaycan, hətta dünya ədəbiyyatının zirvəsi sayılan əsərlər çıxmışdır. Burada yaratdığı obrazlar, onların vasitəsilə irəli sürdüyü dərin fəlsəfi fikirlər Cavidin yaradıcılığının bənzərsizliyini, orijinallığını və özünəməxsusluğunu ortaya çıxarır. Həmçinin əsərlərinin dili ilə də Cavid təkrarolunmazdır. Uzun illər Türk dünyasının gündəmində olan ortaq türk dili məsələsi məhz Cavid yaradıcılığında öz həllini hələ o dövrdə tapmışdır. Bəzilərinin fikrincə, osmanlıca yazıb-yaradan və “dilimizə zərbə vuran” Cavid, əslində, bütün Türk dünyasına xitab edən, türk xalqlarının ortaq ünsiyyət vasitəsinə çevrilə biləcək orijinal bir dildən istifadə etmişdir.*




Öz əsərlərinin mövzusu və məzmunu ilə yaşadığı dövrün məhdud çərçivələrinə sığa bilməyən Hüseyn Cavidin irəli sürdüyü bəşəri ideyalar onun həyat yolunu, ağır taleyini müəyyən etmişdir. Hüseyn Cavidin özünəməxsus, dövrün, ideologiyanın tələblərinə boyun əyməyən düşüncə tərzi onu məhvə sürükləmiş, ağır repressiyaların qurbanı olan, həyatının son illərini həbsxanalarda keçirən dahi şairin Naxçıvandan başlayan həyat yolu 1941-ci ildə Rusiyada – İrkutsk vilayətində qırılmışdır. Cavidin siyasi bəraət alması, onun Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi yenidən xalqımıza qazandırılmasında Ümummilli Liderimiz Heydər Əliyevin böyük rolu olmuşdur. Onun səyləri və qətiyyəti sayəsində dahi şairin cənazəsi Azərbaycana gətirilərək doğma Naxçıvan torpağında əbədiyyətə qovuşdurulmuşdur.

Yaradıcılığının əsas ideyası insan taleyi, onun bu günü, gələcəyi olan Hüseyn Cavid həm şeirlərində, həm dram əsərlərində, həm də poemalarında bəşəri problemlər ortaya qoymuş, özünün lirik-fəlsəfi fikirləri ilə nadir sənət inciləri yaratmışdır: “Hüseyn Cavidin poeziyasında romantika ilə realizmin heyrətamiz bir vəhdətini görürük. Şair xeyirin təntənəsinə nə qədər işıqlı, romantik xəyallar bəsləyirsə, şərin məhvi üçün də o qədər səbirsiz, acıqlı tədbirlər irəli sürür”.



Hüseyn Cavidin yaradıcılığında ideya-sənətkarlıq baxımından ən kamil poema “Azər” əsəridir. Bu lirik-epik, fəlsəfi əsəri şair hələ 1926-cı ildə Almaniyada müalicə olunarkən yazmağa başlayıb, 1928-ci ildə tamamlayıb. Bu əsərdə o özünün zəngin təəssüratlarını, həssas şair qəlbi ilə duya bildiyi, çoxlarının görə bilmədiyi həyat həqiqətlərini çox böyük uğurla əks etdirə bilmişdir. “Azər” həm də özünün maraqlı quruluşu ilə diqqəti cəlb edir. “Düşündüm ki”, “Azər düşünürkən”, “Gecə aydınlığı və gün doğuşu”, “Qərbə səyahət”, “Azad əsirlər”, “Kömür mədənində”, “Mühacirlər yuvası”, “Nil yavrusu”, “Şərqə doğru”, “Yaşamaq və yaşatmaq”, “İsyan” və digər adlarda ayrı-ayrı müstəqil hissələrdən ibarət olan bu əsər həm əruz, həm də heca vəznli şeirlərin düzümü ilə Hüseyn Cavidin usta qələmindən nəfəs almışdır. Bu isə şairə həyatın müxtəlif sahələrinə aid fikirlərini daha yaxşı ifadə imkanı vermişdir.

Azərin timsalında şair özünün dünyanı necə görmək istədiyini, gələcəklə bağlı xəyallarını, həyat haqqında düşüncələrini belə ifadə edir:

*Düşündüm ki, susar qanlı tufanlar,*
*Keçər zalım fırtınalar, böhranlar,*
*Çəkilir dumanlar, sönər vulkanlar,*
*Ninni söylər bana coşqun ırmaqlar.*

“Azər” poeması H.Cavidin Qərbə və Şərqə, eyni zamanda Şərq-Qərb müstəvisində Azərbaycana baxışlarını geniş şəkildə ifadə edən mükəmməl sənət əsəridir. İki fərqli dünyagörüşünü qarşı-qarşıya qoyan şair üçün vacib olan harada doğulmağından və yaşamağından asılı olmayaraq insandır. Ona görə insan istərsə, dünyanı özünün yaxşı əməlləri ilə gözəlləşdirib müharibələri, zülm və ədavətə son qoya bilər:

*Əvət, insan olursa insanlar,*
*Şübhəsiz, parlayıb da vicdanlar*
*Sevgi nurilə kainatı bəzər,*
*Bıraqıb kini, qurt qoyunla gəzər.*
*Bəlli.. Ta əskidən böyük başlar*
*Sülh için uğraşıb çalışmışlar.*
*Çıqaraq hərbə qarşı həp ürəfa,*
*Əbədi sülh içində buldu şəfa.*

Bu fikirlər Hüseyn Cavid əsərlərinin bütün ruhuna hopmuşdur. Romantik şairin bütün yaradıcılığı boyu əsas qayəsi insanları faciələrə sürükləyən hər cür zehniyyətçiliyi, şər ideyaları, bəşəriyyəti fəlakətə məhkum edən müharibələri rədd edərək cəmiyyəti sülh içərisində, firavan görmək idi. Məhz bunun üçün də şair yaratdığı obrazların daxili aləmini belə qabardır. Hüseyn Cavid üçün ən böyük düşmən insanın öz təbiətindəki, mənəvi aləmindəki şər qüvvələrdir. “Azər” poemasında Hüseyn Cavid Şərqlə Qərbi, yeniliklə köhnəliyi qarşı-qarşıya qoyur. Əsərdə həm Berlində, həm də Bakıda təsvir olunan Azər dünyanın bu iki, bir-birindən fərqli mədəniyyətə, adət-ənənələrə malik nöqtəsini maraqlı şəkildə qarşılaşdırır:

*Hər ocaqda, hər bucaqda bilgi, hünər məbədi var,*
*Hər yüzdə ruh yüksəkliyi, hər gözdə bir zəka parlar,*
*Çəlik əsəblər durmadan həp yeni bir zəfər arar,*
*Hər qafada bir iman var əməkdəki səadətə.*
*Bu yerlərdə yalan, qərəz, qayğısızlıq da yoq deyil,*
*Kölgəli vicdanlar da çoq... zahirdə pək kibar, əsil.*
*Süslər içində qıvrılan göyərçinlər də var: səfil...*
*Fəqət yenə həp üstündür fəzilət eşqi zillətə.*

Avropada gördüyü hərtərəfli tərəqqini təsvir edən şair, eyni zamanda apardığı müqayisələr fonunda bəzi məsələlərdə Avropanın cəhalətin girdabında olan Şərqdən heç də geri qalmadığını göstərir. Orada müşahidə etdiyi avropalıların, adətən, Şərq xalqlarına məxsus barbarlıq hesab etdiyi, tənqid atəşinə məruz qoyduğu həyat tərzini öz oxucusuna belə təqdim edir:

*Bir zaman bəlkə dünkü Asiyada,*
*Əski Qafqazda, vəhşi Afrikada*
*Qızı cəbrən satıb alırlarmış.*
*Ona Avropa xalqı pək fahiş*
*Bir fəlakət demiş də hayqırmış,*
*Tablo yapmış, rəsimlər aldırmış.*
*Gülmüş, əylənmiş, eyləmiş heyrət,*
*Bəsləmiş bəlkə bir yığın nifrət...*
*Fəqət bu nə hal idi!?*
*Bunu görməzmi incə gözlüklər?*
*Satılır burda qızlar azadə,*
*Həm təbii bir iş qadar sadə.*

“Azər düşüncə, idrak və həqiqət aşiqidir. O artıq günün müasir ictimai fikri səviyyəsində durur və özündən əvvəlki fəlsəfələrə yekun vurur, onları saf-çürük edir”. Azərin dünya hadisələrinə öz münasibəti var. Şair müxtəlif məqamlarda bu münasibəti açaraq öz qəhrəmanını həqiqət, ədalət axtarışında olan, daxilən kamilləşmiş bir insan kimi təsvir edir. “Azər” poeması Azərbaycan ədəbiyyatında poema janrının ən yaxşı nümunələrindən biridir. Həm məzmun, həm də ideya baxımından yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən bir əsərdir.

Avropadan geri dönən Azərin gəldiyi qənaət bundan ibarətdir ki, insan elə hər yerdə insandır. O, şahidi olduğu hadisələrə ictimai məna verməyi bacarır, gördüklərindən nəticə çıxarır. Əslində, Azər Hüseyn Cavidin özünün fəlsəfəsini tam şəkildə əks etdirən bir obrazdır. Şair Azərin dilindən həyat həqiqətlərini hayqırmaqla yanaşı, həm də maraqlı təbiət lövhələri yaratmış, Azərin ovqatı ilə təbiət arasında bənzətmələr, uyğunluqlar təsvir etmişdir. Azər cəmiyyətdə gördüyü çatışmazlıqları yalnız duymaqla qalmır, onların səbəblərinə, nəticələrinə dair də öz mülahizələrini irəli sürür. Azərə görə, bu qarışıq, xaoslarla dolu dünyada xalqların nicatı ancaq öz azadlıqları uğrunda mübarizədədir:

*Əvət, ancaq mübarizə bənlik verir hər millətə,*
*Nəşə sərpən yalnız odur hər şəxsə,hər cəmiyyətə.*
*Hər yurdu irdirən odur özlədiyi səadətə,*
*Odur ancaq qavuşduran insanları məhəbbətə.*

“Azər” poeması Hüseyn Cavidin yaradıcılığının artıq yetkin dövründə qələmə aldığı dərin fəlsəfi fikirlər ifadə edən, dolğun məzmunlu, mükəmməl formalı bir əsər kimi xarakterizə oluna bilər. Müasir dövrümüzlə də tam səsləşən əsərdə əsrlərlə xalqların öz əsarətində saxlamış cəhalət pəncəsindən qurtulub işıqlı gələcəyə gedən yolu filosof şair məhz belə görür.

Hüseyn Cavidin “Azər” poeması Azərbaycan və dünya ədəbiyyatında sülhə, humanizmə, ədalətə inam və çağırışlar ifadə edən ən sanballı əsərlərdən biri kimi aktuallığını hər zaman qoruyacaq.

**Nuray ƏLİYEVA**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun dosenti***

İctimai sərnişin nəqliyyatı dövlətin hər zaman diqqətində olan və mühüm əhəmiyyətli sosial sahədir. Yəni yük nəqliyyatından fərqli olaraq bu sahədə kommersiya maraqları deyil, əhalinin rahat yaşayışı, insanların ucqarlardan köçünün qarşısının alınması, iri şəhərlər daxilində tıxacların aradan qaldırılması, ağır fəsadlı yol-nəqliyyat hadisələrinin minimumlaşdırılması kimi mühüm məqsədlər qarşıya qoyur. Azərbaycan Respublikası

*Gəlin açıq danışaq*

## Naxçıvan şəhər sakinləri yeni avtobuslarına nə zaman sahib olacaqlar?

*(replika)*




da müstəqilliyinin ilk illərindən bu sahədə mühüm tədbirlər reallaşdırmış, yol infrastrukturunun və avtobus parkının yenilənməsi istiqamətində mühüm işlər həyata keçirmiş, gediş haqları Tarif Şurasının qərarları ilə tənzimlənmişdir. Nəticədə, ildən-ilə ölkəmizdə bu sahədəki irəliləyiş göz önündədir.

Lakin bununla yanaşı, göz önündə olan elə məsələlər də vardır ki, bunlara laqeyd qalmaq olmur və vətəndaş kimi yaranan suallara gec də olsa, aydınlıq gətirilməsi lazımdır. Söhbət Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2018-ci il 30 iyul tarixli 7 nömrəli Qərarı ilə hazırda ölkə miqyasında şəhərdaxili gediş haqlarının 30 qəpik olmasına baxmayaraq, Naxçıvan şəhəri daxilində 2022-ci ilin yayından bunun artırılaraq 40 qəpik olmasından gedir. Həm ictimai nəqliyyatdan istifadə edən on minlərlə sakindən biri, həm də uzun müddət məlum səbəblərdən obyektiv tənqidə və müstəqil fikrə susqun buraxılmış bir qəzet əməkdaşı kimi insanların da tez-tez müzakirə etdiyi bu məsələ ilə maraqlanıb, yollandıq Naxçıvan şəhər nəqliyyatına məsul olan təşkilata.

İnsafən həmin qurumda bizi yüksək səmimiyyətlə qarşılasalar da, burada gediş haqlarının nədən ölkə səviyyəsindən 25-30 faiz baha olması ilə bağlı sorğumuza dərhal cavab verə bilməyib bir az gözlətdirdilər. Halbuki Naxçıvan şəhərində işləyən marşrut avtobuslarının ön pəncərəsində sərnişinlərə 6 yaşdan yuxarı uşaqlar üçün gediş haqqının pullu olduğunu xatırladan bildiriş rəsmi qərarın nömrəsinədək burada da bizə təqdim olundu.

Mən də sizləri çox gözlətdirmədən onu qeyd edim ki, təxminən, yarım saatdan sonra idarə əməkdaşı məni təkrar otağına dəvət edib, direktorun yanına qalxmağı təklif etdi. Təbii ki, bununla razılaşmayaraq, sadəcə, Naxçıvanda gediş haqlarının artırılması barədə rəsmi bir sənəd üçün gəldiyimizi israrla bildirdik. Sonda aldığımız şifahi cavabı olduğu kimi təqdim edirik: “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti dövlət dəstəyi olmadan yeni avtobuslar alması və kreditlərin ödənilməsi üçün onlara yuxarıdan verilən belə göstərişlə, guya, 2022-ci ilin oktyabrın 1-dən (halbuki bütün naxçıvanlılar qiymət artımının bundan azı 3-4 ay öncə olduğunu təsdiq edə bilərlər) gediş haqlarını artırıb. Günün sonuna qədər bu qərarı da kağız üzərində görə bilmədiyimiz üçün bizdə də belə bir fikir yarandı ki, onda, yəqin, kreditlər ödəniləndən sonra bu yeni avtobuslar ya bir müddət camaat üçün pulsuz işləməli, ya da kreditləri ödəmiş sadə naxçıvanlılara hədiyyə olunmalıdır. Məncə, qanuni əsası olmayan bu qərarın belə bir məntiqi sonluğu da olmalıdır. Son söz isə dövlətimizindir.

Qarşı tərəfin də bu məsələ ilə bağlı bir arqumenti varsa, qəzetdə işıqlandırmağa hazırıq.

**Əli CABBAROV**

## Konsert proqramı təqdim edilib

Naxçıvan Dövlət Filarmoniyasının Estrada Ansamblı ikinci konsert proqramını təqdim edib. Naxçıvan Dövlət Milli Dram Teatrında təqdim edilən, Azərbaycan Respublikasının Əməkdar artisti Teymur Əmrahın rəhbərlik etdiyi layihə çərçivəsində hazırlanan konsert proqramında əvvəlcə Tofiq Quliyevin “Naxçıvani” əsəri ifa olunub.

Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva, Mübariz Əsgərov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov, Nərmin Hüseynova Müslüm Maqomayevin, Emin Sabitoğlunun, Cahangir Cahangirovun, Ramiz Mirişlinin, Oktay Kaziminin, Sərxan Sərxanın, Elza İbrahimovanın və digər korifey bəstəkarların ölməz mahnılarını səsləndiriblər. Böyük şövq və istəklə təqdim edilən ifalar tamaşaçıların gur alqışları ilə müşayiət olunub.

Konsert Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfovun ifasında Müslüm Maqomayevin “Azərbaycan” mahnısı ilə sona çatıb.

Qeyd edək ki, yeni yaradılan ansambl ilk dəfə bu ilin 23 dekabrında Naxçıvan Dövlət Milli Dram Teatrında möhtəşəm konsert proqramı ilə çıxış edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Türkiyə Respublikasının vətəndaşı Hasan İcikə məxsus Türkiyə Respublikası tərəfindən verilmiş A10-V76586 seriya nömrəli şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Çeşməbasar kənd sakini Qasımova Adilə Rza qızına məxsus JN-045A nömrəli, 10310005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1164